*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 127-136*
https://doi.org/10.62837/2024.3.127

**AYNUR Ə.MƏMMƏDOVA**
**Dos.V.Z.Babayeva, ADU**
**Azərbaycan Dövlət Bədən tərbiyəsi və İdman Akademiyası,**
**Fətəli xan Xoyski prospekti 98, Bakı, Azərbaycan**
e-mail: aynurovchuyeva@yahoo.com

# XARİCİ DİLİN TƏDRİSİNDƏ YAZININ ROLU

**Açar sözlər**: yazı, xarici dildə yazı, yazı bacarığının inkişafı, yazı tapşırığı prosesi

**Keywords**: writing, writing in a foreign language, the development of writing skill, the process of writing assignment

**Ключевые слова**: письмо, писать на иностранном языке, развитие навыков письма, процесс написания задания.

Yazı ünsiyyətin vizual formasıdır, fərqi yoxdur bu kağız üzərindədir və ya elektron formadadır. Yazı oxucu və yazıçı arasında qarşılıqlı əlaqədir. Yazı produktiv bacarıqdır, çünki yazıçı yeni bir nitq yaradır. Yazı fikirlərin, ideyaların, düşüncələrin, hisslərin qrafik kodudur.

"Yazı oxucudan dilin bütün komponentlərini bilən və onları birləşdirməyi tələb edən kompleks bir prosesdir. Xarici dildə yazı xüsusilə orfoqrafiyası müxtəlif olan şüurlu prosesdir." (1)

Müasir zamanda yazı bacarığı çox vacibdir. Sadə qeyri-rəsmi qeydlərdən tutmuş rəsmi kompleks şəklində olan məktublar, esselər, elmi məqalələr, akademik yazılar, jurnalistikaya aid olan yazılar, kitablar - hamısı yazının bir parçasıdır və həyatın istənilən yerində istifadə olunur. Gündəlik fəaliyyətimizin çox hissəsi iclaslar, təqdimatlardan tutmuş sadə email, adi söhbətlər hər biri ünsiyyət tələb edir. Xüsusilə bugünkü biznes mühitində dil bacarıqları karyera gücləndirir və çox vacib hesab edilir. Reallıqdan danışsaq ele şirkətlər də işçi işə götürərkən dil bacarıqları olan təcrübəli namizədlər axtarırlar. Bu bacarıqlara sahib olan namizəd özgüvənli danışıq, ətrafdakılarla informasiya mübadiləsi aparmağa malik olur. Qlobal iş yeri bizi ünsiyyət bacarıqlarımızı təkmilləşdirməyə məcbur etdiyi üçün biz yazı qabiliyyətimizə daha çox diqqət yetirməliyik, çünki ünsiyyət hər hansı digər media növündən daha çox yazı vasitəsilə ötürülür. Beləliklə, yeni bir dil öyrəndikcə onunla yazı bacarıqlarımızı cilalamaq daha uzun müddətdə öz bəhrəsini verəcəkdir. Bir və ya iki beynəlxalq dildə yaxşı yazan istənilən peşəkar üçün daha böyük üstünlük verilir.

Bir çox insan xarici dili məhz danışıq üçün öyrənir, yazıya üstünlük vermir, çünki yazı söhbətlər aparmağa şifahi danışıq kimi kömək elemir. Yalnız oxu və qulaq asma da dilinizi formaya salmağa imkan verməyəcək. Əgər həqiqətən də

öyrəndiyiniz dildə axıcı olmaq istəyiriksə biz oxuma, anlama, danışıq və yazıya da fokuslanmalıyıq. “Dil öyrənməkdə yazı bacarıqları çox vaxt diqqətdən kənarda qalır. Bir çox dil öyrənənlər danışma və ya dinləmə kimi bacarıqlara daha çox diqqət yetirirlər. Bununla belə, hədəf dilinizdə yazmaq bacarığınızı məşq etməmək və inkişaf etdirməmək potensial olaraq irəliləyişinizi ləngidir. İnsanlar gündəlik həyatlarında bu qədər yazmaq məcburiyyətində olmadıqlarını hiss etdikləri üçün yazmaq daha az əhəmiyyət kəsb edir və bunu etdikdə, insanların hər hansı bir dildə yaxşı yazı hazırlamaq üçün etibar etdiyi hər cür orfoqrafiya yoxlayıcıları və digər növ redaktə proqramları var.” (2)

Xarici dil öyrənərkən yazının nəyə görə vacib olduğunu aşağıdakı səbəblər vasitəsilə göstərmək olar:

- Bu sizin fikirlərinizi sıralamağa və təmizləməyə kömək edir.

Yazı çox yavaş prosesdir. Bu proses sizə fikirlərinizi sıralamağa və cümlələrinizi formaya salmağa kömək edir. Bu zamanda siz sözlərinizi tədricən emal edirsiniz, kağıza və ya rəqəmsal sənədə köçürdüyünüz zaman belə sözləri bir daha lüğətə baxaraq nəzərdən keçirirsiniz. Bunun nəticəsində siz yeni lüğət ehtiyatı yığırsınız, orfoqrafiya, tələffüz öyrənirsiniz. Bitirdikdən sonra belə siz yenidən geri qayıdıb səhvlərinizi düzəldə bilirsiniz.

- Məşq hər seyi mükəmməlləşdirir, yazını belə. Ona görə də siz bacardığınız qədər öyrəndiyiniz xarici dildə yazı yazmalısınız. Bu zaman kəsiyində güclü və zəif nöqtələrinizi aşkara çıxaracaqsınız, səhvlərinizin üzərində işləyəcəksiniz, bunun nəticəsində siz artıq danışıq prosesində irəliləyiş əldə edəcəksiniz və nitqiniz mükəmmələ doğru gedəcəkdir.

- Bu başqalarının da sizə rəy bildirməsinə kömək edəcəkdir.

Siz öz səhvlərinizi düzəltdiyiniz qədər başqalarına da sizin işinizi yoxlamağa icazə verməlisiniz. Yazıda rəy açar sayılır. Yazdıqlarınızı hərtərəfli yoxlamaq, nəzərdən keçirmək və təkmilləşdirmək barədə sizə verilən məsləhətlər də sizi düzgün istiqamətə yönəltmək üçün bir yoldur.

- Bu öyrəndiklərinizi xatırlamağa kömək edir.

Dildə sözlər, frazalar, qaydalar bunların hamısını yadda saxlamaq mümkün deyil. Lakin bir çox araşdırmalar göstərir ki, yazı məlumatı yadda saxlamaqda faydalıdır, çünki öyrəndiyinizi təcrübədə tətbiq etmək onu beyninizdə möhkəmləndirmək üçün vacibdir, təcrübə beyində yeni sinir yolları yaradır. Yazarkən, aldığımız məlumatı qiymətləndirmək üçün müəyyən dərəcədə fikirləşirik. Bu proses ideyaları beynimizdə daha möhkəm yerləşdirməyə kömək edir və daha çox xatırlamağa səbəb olur.

Xarici dildə yazını tədris etməyin məqsədi ən sadə yazı formasından tutmuş (hərflərdən) söz yazmağa, cümlə qurmağa, ideyalar fikirləşməyə, mətnlər yaratmağa, lüğət ehtiyatı və qrammatika təkmilləşdirməyə, ünsiyyət qurmağa xidmət edir.

Tələbə bunlara məhz yazı yolu ilə nail olaraq peşəsindən asılı olmayaraq daim irəli gedir və dünya ilə əlaqə qura bilir.

Müəllimin xarici dil öyrətmə prosesində əsas rolu 4 bacarığı tələbəyə öyrətmək və inkişaf etdirməkdir. Yeni metodların istifadəsi, müasir texnoloji vasitələrdən istifadə bu inkişafın əsas təməlidir. Bəs ünsiyyətin növü olan yazı bacarığının əsas funksiyası nədir? Nəyə görə yazını öyrənmək lazımdır? Xarici dil dərslərində yaradıcı yazının aşağıdakı kimi ümumiləşdirmək olar: yazı çətinliyinə, utancaqlığa qalib gəlmək, başqalarını anlamaq, özünün düşüncələrini, fikirlərini emosiyalarını izah etmək, lüğət ehtiyatını və qrammatik biliyi tətbiq etmək və test etmək

Müəllimin yazı prosesində gördüyü işləri əsasən aşağıdakı kimi sıralamaq olar: a) söz seçimində, cümlə qurmaqda tələbəyə kömək etmək b) mütəmadi olaraq tələbələrə bələdçilik etmək və onların yazılarına lazımi diqqət ayırmaq c) tələbələrini daha çox yazmağa cəsarətləndirmək d) tələbələri onların səviyyəsinə uyğun maraqlı mövzularla təmin etmək

e) tələbələrinin yazısını mükəmməlşdirmək üçün onlara ipucları vermək

“The acquisition of the skill of writing in a foreign langauge is a complex process that requires the mastery of various subskills. The process of learning to write in a foreign langauge should be started in Primary Education and really never ends. A dynamic, creative, progressive, gradual and systematic methodology is needed if our pupils are to teach a high level of competence in the foreign language.” Xarici dildə yazmaq bacarığı ilə tanışlıq müxtəlif alt bacarıqların ustalığını tələb edən kompleks prosesdir. Yazmağı öyrənmək prosesi ibtidai təhsildən başlamalıdır və həqiqətən də heç bir zaman sona çatmır. Şagirdlərimizə xarici dildə yüksək səviyyədə səriştəlilik öyrətmək üçün dinamik, yaradıcı, mütərəqqi, mərhələli və sistemli metodologiya lazımdır. (1)

Şagirdlərin nəyə görə yazını sevməməyinin aşağıdakı səbəblərini qeyd etmək olar: yazı onlardan şifahi danışığa nisbətən daha çox səriştə tələb edir, tələbələr düşünürlər ki, onlar kifayət qədər dil biliyi çatışmazlığından əziyyət çəkirlər, Onların fikrincə yazı qrammatik cəhətdən doğru olmalıdır, formal düzgünlüyə elə ilk cəhddən nail olmaq lazımdır.

Bəs bu zaman müəllim yazı bacarığı üçün şagirdləri necə motivasiya edə bilər?

Yazı fəaliyyəti onların maraqlarına və istəklərinə uyğun olmalıdr. Mümkün olduqca real həyatla əlaqələndirməlidirlər. Göründüyü kimi yazı həm müəllimlər xüsusən də uşaqlar üçün kompleks tapşırıq hesab olunur. Şagirdləri müxtəlif yollarla yazıya həvəsləndirmək müəllimlərin borcudur deyə bilərik. Bunun üçün müxtəlif yollar da vardır. Yazı prosesi zamanı şagirdləri müxtəlif mənbələrlə, imkanlarla təmin edə bilərik. Yalnız onlar bizə deyil, biz de onlara yaza bilərik və ya onlarla birlikdə yaza bilərik. Yazının uğurlu alınması üçün onları savadlı mühit ilə təmin edə

bilərik. Savadlı mühit dedikdə kitablar, sinif otağında yaradılan şərait, kitabxana və s. aid eləmək olar.

Müəllimlər tələbələrində yazı bacarığını təkmilləşdirmək məqsədilə öz metodlarını da təkmilləşdirmək istəyirlər. a) ingilis dilində həm dərsdə , həm də dərsdən kənar ingilis dilində müxtəlif kitablar oxumağın yazının inkişafında müstəsna rolunun olmağı b) ingilis dilində mütəmadi olaraq yazmaq və bunu çap etdirməyə çalışmaq c) İngilis dili dərslərində iştirak etmək və aktiv olmaq üçün onları cəsarətləndirmək d) metodları yeniləmək və hərfi tərcümədən qaçmaq

Müəllim sinifdə yazı tələbələrin yazı bacarığını inkişaf etdirmək üçün bu prosesdə sinifdə aktiv olmalı, tələbələrinə bələdçilik etməlidir. Müəllim yazı prosesində savadlı və zəif tələbəyə eyni davranmalı, bu prosesdə irəliyə getmək üçün metodlarını inkişaf etdirməkdə həvəsli olmalıdırlar. Müəllimlərə sinifdə yazı prosesinin daha effektiv olması üçün treyninqlər təklif olunmalı, tələbələrin öz yazılarını mütəmadi hala gətirmək və yazdıqlarını çap etdirməyə şərait yaratmaq lazımdır. Müasir dövrdə təhsil müəssilərinin internet veb saytı, sosial şəbəkələrdə hesabı vardır. Həmin internet platformalarında həm şagirdlərin, həm də müəllimlərin yazılarının dərc olunması üçün şərait yaradılmalıdır. Yazı yarışlarının təşkil olunması, müəllimlərin şagirdləri bu müsabiqələr üçün hazırlaşdırması yazı bacarığının inkişafına bilavasitə kömək olacaqdır. Bundan əlavə təhsil müəssəsinin çox yaxşı təmin olunmuş kitabxanası olmalıdır. Tələbələr bu kitabxanalardan həm xarici dildə oxumaq, mütaliə aparmaq,  həm də yazı bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif vəsaitlərlə təmin olunmalıdırlar. Ali məktəblərin özünün dərc etdiyi jurnallar olur. Həmin jurnallarda müəssisənin həm öz müəllimləri, həm də kənar adamlar məqalə çap etdirə bilirlər. Bu jurnallarda tələbələrin də rahatlıqla məqalələrini çap etdirmək imkanı yaradılmalıdır.

“Yazi prosesi başlamazdan əvvəl 3 vacib sual nəzərdə saxlanılmalıdır.

1.Məzmun: nə yazırsan

2.Ünvan və ya oxucu : kim üçün və ya kimə yazırsan

3.Məqsəd: nə üçün yazırsan ?

Müxtəlif növ mətnlər var və şagird bunların hər birindən xəbərdar olmalıdır. Onları bir neçə əsas qrupa bölmək olar.

a)Şəxsi yazılar ( siyahılar, reseptlər, gündəliklər, telefon nömrələri, ünvanlar və s.)

b)Şəxsi və ictimai yazılar ( leksiya qeydləri, xülasələr, esselər, imtahanlar, imlalar, inşalar, şeirlər, mahnılar, avtobioqrafiyalar s.)

c)İctimai və ya elmi yazılar ( məktublar, dəvətnamələr, ərizələr, fakslar, emailler, smsler, protokollar, məqalələr, müqavilələr, biznes məktubları və s.)

Şagirdlərin yazdığı auditoriya yalnız müəllimlərdən ibarət olmamalıdır. Oxucularının arasında şagirdlərin sinif yoldaşları, məktəbdəki digər şagirdlər, qələm

dostları, internetde mesajlaşa biləcəyi adamlar, valideynlər, dostlar və s. olması yazıçını yazmağa daha da motivasiya verir.

Digər insani fəaliyyət kimi yazı insanın hisslərini, lüğət ehtiyatı, stili, formatı müəyyənləşdirən bir fəaliyyətdir. Yazıçının maraqlarından, yaşından, ehtiyaclarından asılı olaraq müxtəlif məqsədlərlə yazı yazır.” (1)

Xarici dildə yazı təkmilləşməsi bir neçə mərhələdən keçir: Bu mərhələlə Pincasın (3) kitabında qeyd edilir: yazı ilə tanış olma, kontrolsuz yazı, müşahidə altında olan yazı, sərbəst yazı

Yazı ilə tanış olma mərhələsində şagirdlər cümlələrini qurmazdan əvvəl sözlər yazmaq, sadə qrammatik tapşırıqlar, sözlərin düzgün yazılışı, lüğət ehtiyatına uyğun çalışmalar yazmaqla yazı prosesinə start verirlər. Bu kimi tapşırıqlara anaqram, krossvord, sözləri cümlələrdə müvafiq yerlərə qoymaq və s. misal göstərmək olar.

Kontrollu yazı çalışmalarında müəllim şagirdlərə linqvistik materiallar təqdim edir. Şagirdlərin bu kimi materiallardan istifadə edərək çalışmalarda səhv etmək ehtimalı azalır. Bu da onlarda özgüvən hissini artırır. Gələcəkdə olan bu özgüvən yazı prosesində daha çox uğurun qazanılmasına yardımçı olacaqdır. Bu mərhələyə aid olan calışmaları - suallara cavab vermə, durğu işarələrini yazma, qarışmış cümlələri mənaya uyğun olaraq ardıcıl yazmağı nümunə demək olar. Bu mərhələdə şagirdlərə müəllim və ya kitab tərəfindən dəqiq təlimatlar verilir. İdeyaların başqaları tərəfindən verilməsinə baxmayaraq həmin ideyaların ifadə olunması şagirdlərin üzərinə düşür ki, bu da onlara azad işləmək imkanı verir. Bu mərhələdə müəllim tələbələrə nəzarət etmir, onlara ipucular verərək istiqamət verir. Bu mərhələyə uyğun gələn tapşırıqlara informasiya mübadiləsi, hekayə xəritələri və s. olar.

Sonuncu mərhələ hesab edilən sərbəst yazıya yaradıcı, ifadəedici yazı da deyirlər. Bu mərhələdə şagirdlərə özünü ifadə etmək üçün minimum köməklə mövzu verilir. Buna uyğun olan çalışmalar, bütün növ mətnləri ( məktublar, romanlar, hekayələr və s.) aid eləmək olar.

“Müəllimlər vasitəçi olmalıdırlar və ən yaxşı mətn tədrisi üçün ən yaxşı şərtləri seçməlidirlər. Şagirdlərin yazı bacarığını mükəmməlləşdirmək üşün aşağıdakı praktiki ideyalar uyğundur:

a) İmla yazarkən müəyyənləşdirmək üçün müxtəlif durğu işarələrindən istifadə edərək intonasiyanı tədris etmək çox vacibdir.

b) Cümlələr, paraqraflar, inşalar yazmaq

c) Problem həlledici tapşırıqlardan istifadə etmək: Hekayəyə uyğun sonluq tapmaq, “siz bu situasiyanın içində olsaydınız nə edərdiniz”,” Diaqramlardan istifadə edərək mətn qurun” və s.

d) Real həyat situasiyalarından istifadə edərək orijinal situasiyalar yazmaq: qeydlər, teleqramlar, postkardlar, məktublar, tədqiqat işləri üçün xülasələr

e) Dilçilik oyunları: krossvord, "uyğun sözü tapın"

f) Doğru nümunəni yazı taxtasında göstərərək şagirdlərin imla vərəqələrini aralarında dəyişdirərək onlara yoxlatdırmaq

g) Verilmiş mətni 2-3 dəfə oxuyaraq yadlarında qalanı yazmaq

h) Lövhədə yazı yarışlarını inkişaf etdirmək : sözlər, cümlələr və s.

i) Posterlər düzəltmək

j) Beyin fırtınası çalışmaları: "Xoşbəxt xatirə haqqında yazmaq", "Ev heyvanları"

k) Sərbəst yazı: Şagirdlər sərbəst seçdikləri mövzular haqqında müxtəlif yazılar yazsınlar." (5)

Öyrənmə prosesində tələbələrin xarici dildə danışmağı daha üstün tutulur, nəinki yazmağı, klassik leksiki və qrammatik yazı çalışmalarından daha çox kreativ düşüncə üçün olan çalışmalar maraqlandırır. Belə hallardan çıxış yolu yaradıcı çalışmalardan istifadə edərək tələbələrdə yazı vərdişini aşılamaqdır. Yazının da danışıq kimi maraqlı bacarıq olduğunu tələbəyə göstərərək müəllimin də bu bacarığı onlara tədris etmək üçün kifayət qədər bilik və təcrübəsinin olması şərt hesab olunur.

"Yaradıcı yazı üçün maraqlı tapşırıqları müəllim dərsliklərdən götürə bilər yaxud da onların əsasında özü hazırlaya bilər. Onlardan bəzilərinə nəzər yetirək:

a) Müxtəlif verilmiş sözlərdən mətn qurmaq

b) Hazırlanmış mətnin buraxılmış hissələrinə uyğun mətn uydurmaq

c) Şəkillərə uyğun mətn tərtib etmək

Yazı tapşırıqlarını dizayn edərkən aşağıdakı addımları izləmək lazımdır:

•Səviyyəyə məqsədyönlü olan tapşırıq yazmaq

•Şagirdlərə yazıdan əvvəl, yazı müddətində və yazıdan sonrakı dövrdə bələdçilik edin

•Tapşırıq pedaqoji məqsədlərə uyğun olmalıdır, şagirdlər tərəfindən müvəffəqiyyətlə yerinə

Başlanğıc səviyyədə olan şagirdlər, tələbələr yazı prosesinə yeni başlayırlar. Bu uzun yolda onları həvəsləndirmək, doğru yolları göstərmək, bu bacarığı onlarda inkişaf etdirmək üçün biz müəllimlər müxtəlif yollara əl atmalı və bunun üçün əlimizdən gələni etməliyik. Yeni başlayanlara yazını tədris etmək tədrici, effektiv və inkişaf edən prosesdir. Yazı bacarığı mənalı yazı təcrübələrindən keçərək inkişaf edir, burda müəlim öz təcrübələrini şagirdlərlə paylaşa bilər. Yazı prosesinə başlayarkən tələbələrə izah edəcəyimiz əsas məqamlardan biri onlara yazının dəqiqliyini deyil, mənalı olmasının vacib olmasıdır. Yazı prosesi əvvəlcədən planlanmalı, qurulmalı və şagirdlərə bu prosedur haqqında məlumat verilməlidir.

Yaxşı olar ki, sözlər, cümlələr, mətnlər üzərindən oyunlar qurulmalı, oynanılmalıdır. Azyaşlı şagirdlər üçün vizual vəsaitlərin (şəkillər, fləşkardlar) istifadə olunması motivasiyanı artırmaqda kömək edir. Şagird nə qədər səhv etsə də səhvlər qəbul olunmalı, onların üzərində işlənməli, bu halda müəllim tələbələrə pozitiv davranmalı, onları yazıya həvəsləndirməli, bütün cəhdlərinə hörmət olunmalıdır. “Siz yazmaqla yazını öyrənirsiniz. Eyni şeyi bütün digər bacarıqlar haqqında da demək olar. Müəllim olaraq bizim əsas vəzifələrimizdən biri tələbələrimizi çox yazmağa, onlar kimi düşünməyə və öz yazı təcrübələrindən öyrənməyə nail olmaqdır. Sərbəst yazıya cavablarımız, hətta səhvlərlə dolu olsa belə, ruhdan düşməyi azalda və öyrənməyə təşviq edə bilər: biz, məsələn, tələbələrin diqqətini onların səhv etdikləri şeylərə rəyimizdə cəlb edə bilərik; hətta açıq şəkildə izah edirik ki, səhvlərlə yazmaq utanılası bir şey deyil, əksinə öyrənmədə faydalı və vacib bir mərhələdir.” (4)

Yazı çirkli bir işdir. Əksər insanlar son versiyaya çatmazdan əvvəl bir sıra səliqəsiz qaralamalardan keçirlər. Öyrənənlərə başlanğıcda orfoqrafiya və qrammatika ilə bağlı çox narahat olmamağı tövsiyə etmək faydalı ola bilər. Müəllim tərəfindən verilən rəy əlaqə məzmunu, eləcə də qrammatik, leksik dəqiqliyi əhatə edən müsbət şərhlər və düzəlişləri əhatə etməlidir.

“Bir çox müəllimlər məzmunun və təşkilatın vacib olduğunu bilirlər, lakin öz rəylərində əsasən dil formaları ilə əlaqəli olduqlarını görürlər və bunun vacib olduğu barədə gizli mesajı çatdırırlar. Bu müxtəlif səbəblərdəndir:

1.Orfoqrafiya və ya qrammatik səhvlər diqqəti cəlb edir və sanki düzəldilməsini tələb edir; onlara göz yummaq çox çətindir.

2.”Students also want their language mistakes to be corrected. ( 5)

Şagirdlər də dil səhvlərinin düzəldilməsini istəyirlər.” (4)

Dil səhvləri məzmun və təşkilat səhvlərindən daha asan və tez diaqnoz qoyulur və düzəldilir. Dilin ( durğu işarələri də daxil olmaqla) düzəldilməli olduğunu qəbul etsək, başqa bir problem yaranır: əgər bütün səhvlər düzəldilərsə təhvil verilən yazının tamamı səhvlərlə örtülü olacaq. Bəs bundan çıxış yolu necə olmalıdır? “Səhvlərin düzəldilməsi dil təliminin bir hissəsidir, lakin bunun çoxu ruhdan sala bilər. Biz yalnız mənaya təsir edən və yaxud çox əsas olan səhvləri düzəldə bilərik; ya da təbii ki, cavabımızı fərdi ehtiyaca görə dəyişirik.” (4)

Yazi prosesi onu gösterir ki, biz tələbələrə ahəngdarlıqla, uyğun qrammatik quruluş və məqbul orfoqrafiyanı öyrədə bilərik. Bunun ən əsas yollarından biri tələbələrə bu yolda motivasiya vermək və effektiv yazının bütün addımlarından onların xəbərdar olmasına kömək etməkdir. Yaxşı olar ki, rəy üçün ayrıca kağız ayrılsın, tələbənin kağızı üzərində qeyd olunmasın. Xüsusilə az yaşlı şagirdlərin yazısını qırmızı qələmlə bütün səhvlərini qeyd etsək, onlara bu zaman psixoloji şiddət göstərmiş olarıq, yazı prosesinin başlanğıcında onları motivasiyasını düşürmüş olarıq. Bu halda anlamaya mane olan əsas səhvlərə diqqət yetirilməlidir.

Bu mərhələdə başqa bir nüansa nəzər yetirək. Biz rəy vermə mərhələsində şagirdlərdən istifadə edə bilərikmi? Yəni şagirdlər bir-birilərini yazısını oxuyub, səhvləri bir birilərinə başa salıb, rəy verə bilərlərmi? Pedaqogika buna icaze verirmi? Biz bu üsuldan istifadə edərsək şagirdlər arasında narahatçılığa yol açmarıq ki? "Həmyaşıdlarının korreksiyası vaxta qənaət edən və faydalı bir üsul ola bilər; həmçinin üslub, məzmun və dil dəqiqliyi üçün tənqidi oxumaq özlüyündə dəyərli bir məşqdir. Bu, bizi tələbə yazılarını yoxlamaq və qiymətləndirmək vəzifəsindən azad etmir, lakin o, ilk qaralamanı əvəz edə bilər. Tələbələr məzmun, dil və yazının qurulması haqqında bir-birlərinə rəy bildirərək ilk layihələri üzərində birlikdə işləyə bilərlər; sonra yenidən yazıb son variantda müəllimə verirlər. Şəxsi münasibətlər, inam və tənqidi qəbul etmək və bir-birindən kömək istəmək məsələsi qalır. Bu, xüsusi tədris üsulları ilə həll edilə bilən problem deyil; bu, öz növbəsində həm tələbələrin, həm də müəllimlərin münasibəti ilə yaradılan ümumi sinif mühitindən asılıdır."(4)

Yazıya müəllimin verdiyi rəydən sonra şagirdin yenidən səhvləri üzərində işləyərək yenidən yazması prosesi gəlir. Yenidən yazmaq çox vacibdir: təkcə öyrənməni gücləndirdiyinə görə deyil, həm də ona görə ki, yenidən yazmaq bütövlükdə yazı prosesinin tərkib hissəsidir. Tələbələrdən yenidən yazmağı tələb etsək, onlar bizdən onların etdiklərini yenidən oxumağımızı və dəyərləndirməyimizi tələb etmək hüququna malikdirlər. Birinci versiyanı müvəqqəti olaraq görmək, yenidən yazılmış, yekun variantı isə rəsmi qiymətləndirmə üçün təqdim olunan "tapşırıq" hesab etmək məntiqlidir. Bu, öyrənənləri yenidən yazmağa həvəsləndirməyə və bunun dəyərini qiymətləndirməyə kömək edir.

Yazı prosesinin sonuncu mərhələsi kimi qiymətləndirməni demək olar. Qiymətləndirmə meyarları aydın şəkildə ifadə olunduqda və əvvəlcədən tələbələrlə paylaşıldıqda güvənilir hesab edilə bilər. Bu meyarlar əvvəlcə müəllimlər tərəfindən hazırlanmalıdır, hər bir meyara uyğun olaraq ballar verilməlidir. Bu meyarlara birinci mövzunun bütövlüyü, daha sonra yazının qurulması, texniki, durğu işarələri, bir sözlə dillə bağlı səhvlər meyarlara salınır.

"Yazmaq potensial olaraq məmnunedicidir. Deməyə dəyərli və ya maraqlı bir şeyin olduğunu hiss etdiyin bir mövzuda yazırsansa, yazma prosesi uducu və zövqlü ola bilər. Əgər yazı son məhsula qədər işlənilibsə, insanların çoxu öz işləri ilə fəxr edir və onun oxunmasını istəyir. Buna görə də, öyrənənləri yazmağa həvəsləndirən mövzu və tapşırıqların seçilməsinə fikir verməyə dəyər. İstər müəllim, istərsə də həmkarlar olsun, minnətdar oxucu auditoriyasını təmin etmək son dərəcə vacibdir. "(4)

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 127-136*

# XARİCİ DİLİN TƏDRİSİNDƏ YAZININ ROLU

**A.Məmmədova**

**Xülasə.**

Yazı ünsiyyətin vizual formasıdır. Xarici dildə yazı danışıq qədər vacib bacarıqdır. Məqalədə müəllimin şagirddə yazı bacarığını inkişaf etdirmək üçün müxtəlif yollardan istifadəsindən danışılır. Yazı prosesi əvvəlcədən planlanmalı, qurulmalı və şagirdlərə bu prosedur haqqında məlumat verilməlidir. Yaxşı olar ki, sözlər, cümlələr, mətnlər üzərindən oyunlar qurulmalı, oynanılmalıdır. Yazı fəaliyyəti onların maraqlarına və istəklərinə uyğun olmalıdır. Mümkün olduqca real həyatla əlaqələndirməlidirlər. Göründüyü kimi yazı həm müəllimlər xüsusən də uşaqlar üçün kompleks tapşırıq hesab olunur. Şagirdləri müxtəlif yollarla yazıya həvəsləndirmək müəllimlərin borcudur deyə bilərik. Bundan başqa yazı tapşırığı prosesi əvvəldən sona kimi izlənilir: tapşırığın şagirdlərə təqdim olunması, rəyin verilməsi və sonda qiymətləndirmənin aparılması. Müəllim olaraq bizim əsas vəzifələrimizdən biri tələbələrimizi çox yazmağa, onlar kimi düşünməyə və öz yazı təcrübələrindən öyrənməyə nail olmaqdır.

## THE ROLE OF WRITING IN TEACHING A FOREIGN LANGUAGE

**A.A. Mammadova**

**Abstract**

Writing is a visual form of communication. Writing in a foreign language is as important as speaking skill. The article analyzes teacher`s use of different ways in order to develop students' writing skill. The writing process should be planned and structured in advance, and students should be informed about this procedure. It is better to create and play games with sentences and texts. The writing activity should match their interests and desires. They should relate to real life whenever possible. As you see, writing is considered a complex task for both teachers and especially children. We can say that to encourage students to write in different ways is the duty of teachers. In addition the process of writing assignment is followed from beginning till end: presenting writing assignment to students, providing feedback and finally evaluating. One of our main tasks as teachers is to get our students to write a lot, think like them and learn from their writing experiences.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 127-136*

# РОЛЬ ПИСЬМА В ОБУЧЕНИИ ИНОСТРАННОМУ ЯЗЫКУ

**А.А.Маммедова**

**Резюме**

Письмо-это визуальная форма общения. Писать на иностранном языке также важно, как говорить. В статье учитель рассказывает об использовании различных способов развития навыков письма учащихся. Процесс написания должен быть запланирован заранее и студенты должны быть проинформировованы об этой процедуре. Лучше создавать и играть в игры на основе слов, предложений и текстов. Писателъская деятелъностъ должна соответствоватъ их интересам и желаниям. Они должны бытъ максималъно связаны с реалъной жизнью. Как видно, писмо считается сложной задачей как для учителей, так и особенно для детей. Можно сказатъ, что обязанностъ учителей – поощрятъ учеников писатъ по-разному. Кроме того, процесс написания от начала до конца: задание презентуется студентам, дается обратная связъ, в конце проводится оценка. Одна из нащих главных задач как учителей – заставитъ учеников много писатъ, думатъ также, как они, и учиться на собственном писателъском опыте.

## Ədəbiyyat

1 . TEFL in Primary Education, Daniel Madrid, Neil Mclaren, Universidad De Granada. 2004

2. https://www.qlanguage.com.hk/writing-skills-in-language-learning/

3. Pincas,A. (1982) :Teaching English Writing. London : The Macmillan Press LTD

4. Penny Ur. A Course in Language teahing. Practice and Theory. Cambridge Teacher Training and Development. 1995. p. 159-170

5. Leki, I. (1991) “Teaching second language writing; where we seem to be”, English Teaching Forum, 29, 2, 8-11, 26 (A brief, readable overview of issues in the teaching of writing)

**Redaksiyaya daxil olma tarixi: 15.03.2024**
**Çapa qəbul olunma tarixi: 30.03.2024**
***Rəyçi: dos. V.Z.Babayeva***
**tərəfindən çapa tövsiyə olunmuşdur**